"Yadında yaxşı saxla! Mühazirələri universiteti qurtardıqdan sonra da kitablardan oxuya biləcəksən. Bəlkə mənim mühazirəmdən daha sanballı kitablar, məqalələr də tapıb oxuyacaqsan. Amma məni, yəni mənim kimi müəllimləri tapa bilməyəcəksən. Biz ömür yolumuzu danışanda da, ailə-məişət söhbəti edəndə də, sizə yol göstərmək, istiqamət vermək məqsədi daşıyırıq. Bəlkə gələcəkdə kitablarda oxuduqlarınızla yanaşı, bizim həyat təcrübəmiz də sizə gərək oldu".

**Mir Cəlal**

## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Mir Cəlal Paşayev 26 aprel 1908-ci ildə Cənubi Azərbaycanın Xalxal şəharinin Əndəbil kəndində doğulmuşdur.***

| | |
|---|---|
| **1918** | Atası vəfat etdiyindən böyük qardaşının himayəsində yaşamışdır. |
| **1919** | Gəncə Xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai məktəbə getmişdir. |
| **1924** | Gəncə Darülmüəlliminə daxil olmuşdur. |
| **1925** | Lenin komsomolu sıralarına qəbul edilmişdir. |
| **1926-1927** | - Əvvəlcə Gəncə Darülmüəllimində tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri olmuşdur;<br>- Zaqafqaziya Ölkə Komitəsinin Tiflisdə nəşr edilən "Yeni fikir" qəzetində məqalələri dərc olunmuşdur. |
| **1928** | - Darülmüəllimi bitirib, Gədəbəy yeddiillik məktəbində müəllimlik etmişdir;<br>- Yaradıcılığa başlayan Mir Cəlal əvvəlcə şeirlə, tənqidlə məşğul olmuş, sonra “Mirzə Xəyal” adlı komediya da yazmışdır. |
| **1929-1930** | 1 №-li Gəncə şəhər məktəbində direktor vəzifəsində işləmişdir. |
| **1930** | Kazan Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. |
| **1932** | - Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur; |

| | |
|---|---|
| | - "Kommunist", "Gənc işçi" qəzetlərində işləmişdir;<br>- "Sağlam yollarda" adlı ilk kitabı çapdan çıxmışdır. |
| **1933** | - "Kommunist" qəzetində birgə işlədiyi Püstə xanımla (1914-2001) ailə həyatı qurmuşdur.<br>- SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin İctimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində çalışmışdır. |
| **1934** | Oğlu Arif Paşayev Bakı şəhərində anadan olmuşdur. |
| **1935** | Aspiranturanı bitirmişdir. Ümumittifaq Sovet Yazıçıları briqadasının tərkibində Ağ dəniz Baltik kanalında yaradıcılıq ezamiyyətində olmuşdur. |
| **1936-1941** | V.İ.Lenin adına APİ-də və S.M.Kirov adına ADU-da müəllimlik etmişdir. |
| **1939** | "Füzulinin poetik xüsusiyyətləri" adlı əsərini müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. |
| **1940** | - "Bir gəncin manifesti" romanı ilk dəfə çapdan çıxmışdır;<br>- Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı dekadasının iştirakçısı olmuşdur. |
| **1941** | Oğlu Hafiz Paşayev Bakı şəhərində anadan olmuşdur. |
| **1943** | Qızı Ədibə Paşayeva Bakı şəhərində anadan olmuşdur. |
| **1944** | Sovet İttifaqı Kommunist Partiyası sıralarına daxil olmuşdur. "Qafqazın müdafiəsinə görə" və SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar olaraq "Əmək igidliyinə görə" medalları ilə təltif edilmişdir. |
| **1944-1960** | SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Sovet ədəbiyyatı şöbəsinin müdiri və S.M.Kirov adına ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında dosent vəzifəsində işləmişdir. |

| | |
|---|---|
| **1945** | SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə “Əmək rəşadətinə görə” medalı ilə təltif edilmişdir. |
| **1946** | "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" medalı ilə təltif edilmişdir; |
| **1947** | "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmlər doktoru alimlik dərəcəsi almışdır. |
| **1948** | - S.M.Kirov adına ADU-da professor vəzifəsinə seçilmişdir;<br>- "Böyük vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmişdir. |
| **1950** | - Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçısı olmuşdur;<br>- SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. |
| **1954** | - SSRİ Yazıçılarının II qurultayında nümayəndə də kimi iştirak etmişdir. |
| **1958** | - Anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq "Şərəf nişanı" ordeni və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif edilmişdir. |
| **1959** | - SSRİ Yazıçılarının III qurultayında nümayəndə kimi iştirak etmişdir;<br>- Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçısı olmuşdur. |
| **1960** | - "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir;<br>- Bir qrup sovet alimi ilə birlikdə Fransa səfərində olmuşdur. |
| **1961-1978** | - S.M.Kirov adına ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifəsində çalışmışdır. |
| **1967** | - "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur; |

| | |
|---|---|
| | - SSRİ Yazıçılarının IV qurultayında iştirak etmişdir. |
| **1968** | - Azərbaycan LKGİ MK-nın qərarı ilə "Bir gəncin manifesti" əsəri Respublika Lenin Komsomolu mükafatına layiq görülmüşdür;<br>- Anadan olmasının 60 illiyi münasibətilə Azərbaycan EA-nın Əsaslı kitabxanası tərəfindən Azərbaycanın elm və mədəniyyət xadimləri seryasından “Mir Cəlal” biblioqrafiyası nəşr olunmuşdur;<br>- Azərbaycan Yazıçılar İttifaqında anadan olmasının 60 illiyi münasibətilə təntənəli yubiley məarasimi keçirilmişdir. |
| **1969** | - Azərbaycan SSR-in “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür;<br>- “Bir gəncin manifesti” əsəri Bakı şəhəri Mədəniyyət sarayının xalq teatrı tərəfindən tamaşaya qoyulmuş, tamaşa festivalın qalibi olmuşdur. |
| **1978** | - Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir;<br>- Sentyabr ayının 28-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir. |
| **1986** | 2 cilddə “Seçilmiş əsərləri” nəşr edilmişdir. |
| **1998** | - 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır;<br>- Anadan olmasının 90 illiyi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən “Mir Cəlal Paşayev” biblioqrafiyası nəşr olunmuşdur;<br>- Şəmkir şəhərində onun adını daşıyan küçədə barelyefi açılmışdır. |
| **2005** | - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə “Seçilmiş əsərləri” latın qrafikası ilə nəşr edilmişdir; |

| | |
|---|---|
| | - Gədəbəy rayonundakı 1 saylı orta məktəbdə həyat və yaradıcılıq yolunu əks etdirən muzey yaradılmışdır. |
| **2006** | - Adını daşıyan gəmi Xəzər dənizinə buraxılmışdır;<br>- Gəncə şəhərində adı verilmiş 39 nömrəli məktəbdə heykəlinin açılışı olmuşdur;<br>- Gəncə şəhərində Xatirə muzeyi fəaliyyətə başlamışdır. |
| **2008** | - 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır;<br>- BDU-nun "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının önündə barelyefinin açılışı olmuşdur;<br>- 2008-2009-cu illərdə 100 illik yubileyinin rəsmi qeyd olunması ilə bağlı görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası qərar qəbul etmişdir;<br>- Parisdə YUNESKO-nun iqamətgahında 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva çıxış etmişdir;<br>- Görkəmli yazıçı və alim Mir Cəlal Paşayevin "Azərbaycanda ədəbi məktəblər" əsəri İranda ərəb qrafikalı əlifba ilə Azərbaycan dilində çap edilmişdir;<br>- Azərbaycanın İspaniyadakı səfirliyində görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin ispan dilində çap edilmiş "İclas qurusu" və digər qısa hekayələr" adlı kitabının təqdimatı olmuşdur;<br>- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Xızı şəhər Mədəniyyət Sarayına Mir Cəlal Paşayevin adı verilmişdir;<br>- Anadan olmasının 100 illiyinə həsr olunmuş poçt markası buraxılmışdır. |

| | |
|---|---|
| **2010** | - “Seçilmiş əsərlərinin üçcildliyi Bişkekdə qırğız dilində nəşr edilmişdir;<br>- Yaqub İsmayılovun "Mir Cəlalın yaradıcılığı" adlı kitabı çapdan çıxmışdır. |
| **2011** | - Qırğızıstanın “Biyiktik” nəşriyyatı yazıçının üçcildlik əsərlərinin nəşrinə görə “Altın Mukaba” Qran-prisinə layiq görülmüşdür<br>- “Elm və təhsil” nəşriyyatında görkəmli ədəbiyyatşünas alim Əhəd Hüseynovun “Mir Cəlalın bədii nəsri” kitabı çapdan buraxmışdır. |
| **2012** | - Heydər Əliyev Fondunun nəfis tərtibatla türk dilində nəşr etdirdiyi görkəmli yazıçı, ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin "Dirilən adam", "Açıq kitab" romanları, "Göylər adamı", "İdxal xəstəlik", "Möhür və eşq" hekayələr kitabları Bursa Uludağ Universitetinin kitabxanasına hədiyyə edilmişdir;<br>- Türkiyənin Ədirnə şəhərində fəaliyyət göstərən Trakya Universitetində Beynəlxalq dil, yazı simpoziumu keçirildi. Simpoziumda Əskişəhər Osman Qazi Universitetinin dosenti T.Əliyeva və Azərbaycan Diplomatiya Akademiyasının müəllimi, fəlsəfə elmləri doktoru F.Əliyeva "Mir Cəlalın və Huriyə Saraçın əsərlərində uşaqlara edilən zorakılıq (şiddət)" haqqında məruzə etdilər. |
| **2013** | - “Əsərləri” 5 cilddə nəfis şəkildə nəşr edilmişdir;<br>- Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində görkəmli yazıçı, böyük alim və pedaqoq Mir Cəlal Paşayevin xatirəsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib. |
| **2014** | - Teymur Əhmədovun ikicildlik “Mir Cəlal: Həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti” adlı kitabı çapdan çıxmışdır;<br>- Yazıçının “Yakiy obrati şlyax?” (“Yolumuz hayanadır?”) adlı kitabı Kiyevdə Ukrayna dilində çapdan çıxmışdır. |
| **2017** | - İçərişəhərdəki Kiçik Qala küçəsində Mir Cəlal Paşayevin 1920-1940-cı illərdə yaşadığı |

| | |
|---|---|
| | ev təmir edilərək, "Ədibin evi" muzey kimi istifadəyə verilmişdir;<br><br>- "Ədibin evi" Mir Cəlal adına hekayə müsabiqəsi elan etmişdir;<br><br>- Həcər Hüseynovanın "Bədii əsərlərdə onomastik vahidlərin rolu: Mir Cəlalın bədii nəsri və Səməd Vurğunun poeziyası əsasında]" dərs vəsaiti çap olunmuşdur;<br><br>- Qazaxıstanın paytaxtı Astana şəhərində görkəmli yazarımız Mir Cəlal Paşayevin anım günü  qeyd olunub. Mir Cəlal Paşayevin "Kəmtərovlar ailəsi" hekayəsi əsasında çəkilmiş "İki yad adam" filmi Qazaxıstanda nümayiş etdirilib;<br><br>- Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Azərbaycan kitabının tanıdılması və dünyəviləşdirilməsi məqsədilə 2016-cı ildə başlanılmış "Azərbaycan Kitabının Dünyada Tanıdılması" (AKDT) layihəsi ilə üzrə Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" romanı Türkiyədə nəşr edilmişdir;<br><br>- Azərbaycanın görkəmli yazıçısı Mir Cəlal Paşayevin ingilis dilinə tərcümə edilmiş qısa hekayələrindən ibarət kitab Los - Ancelesdəki baş konsulluğumuzun təşkilatçılığı ilə keçirilən tədbirdə təqdim edilmişdir. "ADA" Universiteti tərəfindən nəşr edilmiş kitabın ABŞ-da ilk təqdimatıdır. |
| **2018** | - Mir Cəlal Paşayevin "Kəmtərovlar ailəsi" adlı hekyaələr kitabı Türkiyədə işıq üzü görüb;<br><br>- Ali məktəblər üçün "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin yenidən işlənmiş 4-cü nəşri çap edilmişir;<br><br>- Bişkekin "Turar" nəşriyyatında yazıçı-dramaturq, publisist Hidayətin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli ədib, alim, xeyirxah insan Mir Cəlal Paşayev haqqında esse-xatirə kitabı qırğız və rus dillərində nəşr edilib;<br><br>- Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib etdiyi "Mir Cəlal (Paşayev Mir Cəlal Əli oğlu): biblioqrafiya" fundamental biblioqrafiyası çap olunmuşdur; |

| | |
|---|---|
| | - Nizami Cəfərovun "Mir Cəlalın milli idealları " kitabı çap olunmuşdur;<br>- "Füzuli sənətkarlığı" kitabı yenidən nəşr olunmuşdur;<br>- Türkiyədə nəşr olunan "Kardeş kalemler” aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib;<br>- Azərbaycanın Qırğızıstandakı səfirliyi bu ölkənin Mədəniyyət, İnformasiya və Turizm Nazirliyi ilə birgə Bişkekdəki Abdılas Maldıbayev adına Milli Akademik Opera və Balet Teatrında görkəmli Azərbaycan yazıçısı, alim, pedaqoq Mir Cəlal Paşayevin (1908-1978) 110 illiyi münasibətilə təntənəli yubiley gecəsi və qala-konsert keçirib. |
| **2019** | - "Kitab Klubu” nəşriyyatı tərəfindən Mir Cəlal Paşayevin "Bir gəncin manifesti” romanı 264 səhifə həcmində, 100 tirajla işıq üzü görüb;<br>- "Azərbaycan aləmi” Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayevin "Bir gəncin manifesti” əsəri gürcü dilinə tərcümə olunub. Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində kitabın təqdimat mərasimi keçirilib. |
| **2020** | - Xalq yazıçısı və alimin mobil elektron kitabxana bölümü zənginləşdirməklə, sosial şəbəkədə "Mir Cəlal Paşayev" Kreativ-İnnovativ Mərkəz yaradılmışdır. Məqsəd ədibin indiyə qədər nəşr olunmuş kitablarının elektron variantlarını bir resursda cəmləməyi, eləcə də onun aforizmlərindən ibarət kitabın kağız və elektron variantda nəşrə hazırlanaraq çapı-yayımı, ictimai-virtual təqdimatıdır;<br>- Kolumbiyanın “Facebook” sosial şəbəkəsindəki “De la literatura” (“Ədəbiyyat haqqında”) səhifəsi görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın ispan dilinə tərcümə olunmuş “İki ananın bir oğlu” hekayəsini yayımlayıb. Hekayə Azərbaycan Dövlət |

| | |
|---|---|
| | Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı virtual aləmdə" layihəsi çərçivəsində dərc olunub. Tərcümə Mərkəzindən bildirilib ki, hekayə yazıçının həyat və yaradıcılığı haqqında geniş məlumatla təqdim edilir. |
| **2021** | İspaniyanın populyar "Trabalibros" ədəbiyyat portalı görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın ispan dilinə tərcümə edilmiş "İki ananın bir oğlu" hekayəsinə və adibin yaradıcılığı haqqında məlumata səhifə ayırıb. Əsərin ispan dilinə tərcümə müəllifi Rəhimə Məmmədovadır. |
| **2022** | Milli Kitabxanada XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin ilk ədəbi-tənqidi qələm təcrübəsi olan "Ədəbiyyatda romantizm" əsərinin "Milli Kitabxananın qızıl fondundan" seriyasından 4 dildə ilk nəşrinin təqdimat mərasimi keçirilib. |
| **2023** | - Bakı Dövlət Universitetinin professor-müəllim heyəti Mir Cəlal Paşayevin 115 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində görkəmli ədibin Gəncə şəhərində yerləşən ev-muzeyini ziyarət etmişdir;<br><br>- AMEA-nın Humanitar Elmlər Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə görkəmli yazıçı Mir Cəlal Paşayevin anadan olmasının 115 illik yubileyinə həsr edilmiş "Mir Cəlal və ədəbi-tarixi proses" mövzusunda elmi sessiya keçirilib;<br><br>- Görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı Almaniyanın tanınmış Erqon-Nomos nəşriyyatının Bibliotheca Academica - Şərqşünaslıq sahəsində seçilmiş nəşrlər sırasında çap edilib. Kitab Giesen Universitetinin dosenti, şərqşünas-alim Mixael Raynhard Hess tərəfindən alman dilinə tərcümə edilib;<br><br>- Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının alman dilində nəşrinin təqdimatı keçirilib. |

| | |
|---|---|
| **2024** | - Görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünası Mir Cəlalın dahi Azərbaycan şairi Məhəmməd Füzuli yaradıcılığından bəhs edən “Füzuli sənətkarlığı” kitabı ərəb dilinə tərcümədə İordaniyada işıq üzü görüb.<br><br>- Dahi şairin 530 illik yubileyinə töhfə olaraq ərsəyə gətirilmiş kitabın “Ön söz”ünün müəllifi tanınmış İordaniya yazıçısı və ədəbiyyatşünası Samih əl-Məhariq, əsərin ərəb dilinə tərcüməçisi Fərid Camalovdur;<br><br>- Zəngin ənənəsi olan “Əl-Əzminə” nəşriyyatında nəfis tərtibatda çap edilən kitab yaxın günlərdə İordaniyanın mərkəzi kitabxanalarına, universitet və kitab evlərinə paylanılmışdır;<br><br>- ”Ədibin evi” Ədəbiyyata Dəstək Fondu tərəfindən “Azərbaycan müəllimi” qəzetinin 90 illik yubileyi münasibətilə təşkil edilən “Müəllimliyin insanlıq fəlsəfəsi” adlı esse müsabiqəsi Mir Cəlal Paşayevin pedoqoji irsinə həsr olunmuşdur. |
| **2025** | Azərbaycanın İraqdakı səfirliyinin təşkilatçılığı ilə Bağdadın “Beyt Əl-Vattar” irs evində görkəmli Azərbaycan yazıçısı, böyük alim və pedaqoq Mir Cəlal Paşayevin “Füzuli sənətkarlığı” əsərinin ərəb dilində nəşrinin təqdimat mərasimi keçirilmişdir. |